**A.Ə.MEHDİYEVA**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: ayten-69@mail.ru*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

# AZƏRBAYCANIN ORTA ƏSRLƏR DÖVRÜNÜN ÖYRƏNİLMƏSİNDƏ NEMƏTULLAH NAXÇIVANİ İRSİNİN ROLU

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, Nemətullah Naxçıvani, təvsir, tarix, alim*
***Ключевые слова:*** *Азербайджан, Нахчыван, Нематуллах Нахчыван, интерпретация, история, ученый*
***Key words:*** *Azerbaijan, Nakhchivan, Nematullah Nakhchivany, tafsir, history, scientist*

Azərbaycan dünya elm və mədəniyyət tarixinə mühüm töhfələr vermişdir. İstər müasir Azərbaycan Respublikası, istər Cənubi Azərbaycan, istərsə də tarixən Azərbaycan torpağı olmuş ərazilərdə fəaliyyət göstərmiş çox sayda alim, mədəniyyət xadimi və başqalarının adları müxtəlif mənbələrdə saxlanmışdır. Azərbaycan xalqının nümayəndələri Yaxın və Orta Şərqin siyasi-ictimai həyatında mühüm rol oynamışlar. Onların adları mühüm dövlət vəzifələri, məşhur təhsil ocaqlarının müəllimləri və dünya şöhrətli ustad alimlərin cərgəsində çəkilir. Dünya fəlsəfi fikri elm, ədəbiyyat və incəsənətinin yaranması və inkişafı Şərq ölkələrində özünəməxsus formada getmişdir. Belə ki, orta əsrlər Şərq fəlsəfi dünyagörüşü yalnız fəlsəfə tarixi üçün deyil, eyni zamanda mədəniyyət fəlsəfəsi üçün mühüm əhəmiyyət kəsb edən geniş bir elm sahəsini əhatə etmişdir. Bu səbəbdən qeyd olunan dünyagörüşünün doğru, təhrif edilmədən və obyektiv şəkildə araşdırılması orta əsrlər Azərbaycan alim və mütəfəkkirlərinin irsinin öyrənilməsini aktual mövzuya çevirmişdir. Şamaxı, Bakı, Naxçıvan, Qarabağ, Quba, Gəncə, Dərbənd və digər bölgələrdən olan həmvətənlərimiz Şərq ölkələrində müxtəlif məqamlarda çalışmış, sufi təriqətlərinin şeyxi olmuş, ictihad və mərcəiyyət dərəcələrinə yüksəlmişlər (15, s. 4). Onlardan biri Azərbaycanın görkəmli elm xadimi, dövrünün böyük şeyxi və təfsir ustadı Baba Nemətullah Naxçıvani hesab oluna bilər.

Orta əsrlərdə Naxçıvanda yaşayan müəllif, mütəfəkkir, filosof və yazıçıların dünyagörüşü, istedadı, bədii və fəlsəfi sənətkarlığı, elmə verdikləri yenilikləri və s. özündə əks etdirən yazılı abidələr yalnız Naxçıvanın deyil, eyni zamanda Şərq mədəniyyət tarixinin əsaslı və başlıca məxəzləridir (8, s.81).

XIII-XV əsrlərdə ədəbi inkişafı xarakterizə edərkən bu dövrdə sxolastika, saray şeiri, qəsidəçilik və mədhiyyəçilik tendensiyalarının getdikcə azaldığını müşahidə etmək mümkündür. Nəticədə Şəbüstəri, Nəimi, Əvhədi, Nəsimi və Kişvəri kimi mütəfəkkirlərin yaradıcılığı ilə fəlsəfi lirika qüvvətlənmiş, işğalçı müharibələr və ədalətsizliyə etiraz motivləri mistik formada öz ifadəsini tapmış və etiqad sərbəstliyi ideyalarının tərənnümü qüvvətlənmişdir (3, s. 134).

Anadolunun fəthindən sonra İslamın yayılması üçün türk dünyasının müxtəlif bölgələrindən sufi və övliyaların bu ərazidə yerləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Osmanlı sultanları II Mehmet Fateh və II Bəyazidin dövründə elmin inkişafına xüsusi diqqət yetirilməsi ilə bağlı olaraq alimlərin burada çalışması üçün şərait yaradılmışdır. Bu alimlərdən biri sufi şeyxi və filosof, əsl adı Nemətullah ibn Mahmud Şeyx Əlvan olan və Naxçıvanda doğulduğuna görə "Naxçıvani" nisbəsini daşıyan Nemətullah Naxçıvanidir. Eyni zamanda o, nəqşibəndiyyə təriqətinin əsas rəhbərlərindən biri olmuşdur (7, s. 250). Nəqşibəndiyyə təriqətinin böyük şeyxləri arasında fərqlənən Nemətullah Naxçıvani "Gizlənən dərviş" kimi tanınmışdır. Eləcə də onun anadan olduğu Naxçıvan şəhərinin bəktaşiyyə sufi təriqətinin geniş

yayıldığı ərazilərdən biri olduğu bəllidir. Bunu müasir dövrdə əslən Naxçıvandan olan Bəktaşi soyadlı insanlara rast gəlinməsi, onlardan bəzilərinin özünü nəinki bu təriqətin davamçıları, hətta Nemətullah Naxçıvaninin nəslindən olmasını hesab etmələri göstərir. Digər tərəfdən, Nemətullah Naxçıvaninin daşıdığı və sufiliklə bağlı olan "baba" titulu da onun bəktaşi dərvişi olduğunu təsdiqləyir. Bu təriqətdə ən yüksək məqama çatmaq üçün beş mərhələ (Aşıq, Mühib, Dərviş, Baba və Xəlifə) keçilməli idi. İlk üç mərhələni keçən dərvişlərin başına sarıq sarılaraq ona "baba" rütbəsi verilmişdir. Ümumiyyətlə, ölkəmizdə fəaliyyət göstərən bəktaşi dərvişlərinə bu titulla müraciət edilmişdir (20, s. 211, 212). Bu titulu daşıyan dərvişlərin cəmiyyətdə böyük söz sahibi olduqlarını 1500-cü ildə baş verən bir tarixi hadisə təsdiqləyir. Belə ki, həmin ildə Ağqoyunlu taxtı uğrunda mübarizə aparan Murad və onun əmisi oğlu Əlvənd arasında Təbriz yaxınlığında Əbhər adlı yerdə sülh müqaviləsinin imzalanması məhz Baba Xeyrulla adlı bir dərvişin köməyi ilə həyata keçirilmişdir (2, s.402).

Bu sufi aliminin həyatı haqqında məlumatlar məhduddur. Belə ki, o, Naxçıvan mədrəsələrində müəllimlik etmişdir. Güman ki, ömrünün 50 ildən artıq bir dövrünü Naxçıvanda yaşayan Baba Nemətullah göstərilən rütbəyə qədər yüksəldikdən sonra bölgədə yayılan nəqşibəndlik təriqətinə daxil olmuş və Naxçıvandan ayrılmışdır (20, s.211, 212). Naxçıvanı tərk edən alim dövrün böyük sufi alimi Seyyid Yəhya Şirvaninin davamçısı, xəlvəti təriqətinin şeyxi Dədə Ömər Rövşəni ilə bağlı olaraq Təbrizə gəlmiş (1487) və bir müddət burada qalmışdır. Məhz burada yazdığı məşhur Quran təfsiri kitabını 1497-ci ildə bitirmişdir. Qeyd etmək lazımdır ki, XV əsrin sonunda Azərbaycanda elm və mədəniyyətin inkişafı üçün daha əlverişli şərait yaradılmışdır. Ağqoyunlu hökmdarları arasında Yaqub Mirzə öz təhsili, elm və mədəniyyətə diqqət yetirməsi ilə seçilmişdir. Onun sarayında keçirilən məclislərdə Baba Füqani, Baba Nəsimi, Dərviş Dəhki və başqa şairlər fərqlənmişlər (9, s. 180). Qeyd olunan mərhələ Baba Nemətullah kimi elm xadimlərinin yetişməsi və cəmiyyətdə tanınması üçün əlverişli şərait olduğu və onun Təbrizə getməsinin təsadüfi xarakter daşımadığını göstərir. XV əsrdə Təbriz Yaxın Şərqin mədəniyyət mərkəzlərindən biri olmuş, burada çoxlu məktəb fəaliyyət göstərmiş və elmi kadrlar hazırlanmışdır (14, s. 38). Fransız səyyahı J.B.Tavemyenin sözlərinə görə Azərbaycan şəhərlərinin hər məhəlləsində bir neçə məktəb olmuşdur. Alman səyyahı A.Oleari bu fikri inkişaf etdirərək Azərbaycanda küçələri qədər məktəbləri olan şəhərə rast gəlmədiyini bildirmişdir (17, s. 16). XV-XVI əsrlərdə bu məktəblərdə ixtisaslaşma getmişdir.

XV-XVI əsrlərdə Azərbaycanda elm, mədəniyyət, maarif və incəsənətlə yanaşı bədii fikrin inkişafında irəliləyiş nəzərə çarpmışdır. Göstərilən sahələrə nisbətən ədəbi həyatda daha böyük canlanma və yüksəliş müşahidə olunmuşdur. Anadilli söz sənətimizin inkişafında gurlaşma hiss edilmişdir.

Həmin dövrdə yaranan bədii təfəkkür məhsulumuzun mühüm bir sahəsini mühacirət ədəbiyyatı təşkil etmişdir. Müxtəlif sənətkarlar ölkəni tərk edərək Osmanlı imperiyası və ya Mərkəzi Asiyaya üz tutmuşlar. Mühacirətin müxtəlif səbəbləri olmuşdur. Məmləkətdə baş verən feodal müharibələri, iğtişaşlar, qayğısızlıq, maddi çətinlik, özlərinə qarşı münasibətdən doğan inciklik hissi, daha yaxşı güzəran və şan-şöhrət istəyi və s. bu səbəblər sırasında idi. Osmanlı imperiyası ərazisində nisbi sabitlik və əmin-amanlıq mövcud olmuşdur. İstər Osmanlı sultanları, istərsə də müxtəlif yüksək rütbəli mənsəb sahibləri elm və sənət adamlarını himayə etmiş, onlara qayğı ilə yanaşmışlar. Azərbaycan sənətkarlarının əksəriyyəti Türkiyəyə mühacirət etmişlər. Qeyd olunan dövrdə Osmanlı imperiyasına gedən azərbaycanlı sənətkarların sayı 30-dan artıqdır (4, s. 314-315). Güman ki, bu rəqəm daha çox olmuşdur.

1498-ci (1499) ildə vəziyyətin gərginləşməsi, Ağqoyunlu taxtı uğrunda müharibələrin vüsət aldığını görən Baba Naxçıvani Təbrizi tərk etmişdir (13, s. 11). Bu gediş tarixi şəraitlə bağlı olmuşdur. Belə ki, Uzun Həsənin vəfatından sonra onun beş oğlu və Ağqoyunlu sülaləsinin digər hakim qolları arasında kəskin mübarizə başlanmışdır. Onlardan yalnız Yaqub Mirzə 12 il hakimiyyətdə qalmağa müvəffəq olmuşdur. Yaqub Mirzənin hakimiyyətinin möh-

kəmlənməsində Bayandurbəy, Sufi Xəlil və Süleyman Bicanoğlu kimi sərkərdələr mühüm rol oynamışlar. Məhz Sufi Xəlilin əldə etdiyi uğurlar nəticəsində Ağqoyunlu dövlətinin üzərinə edilən bir sıra hücumlar dəf edilmiş və Osmanlı imperiyası bu dövlətlə mübarizəni zəiflətmişdir. Sultan II Bəyazid dərviş (1481-1512) güzəştə getmək siyasətinə üstünlük vermişdir (9, s. 99-100). Əslində, bu şahzadələr Ağqoyunlu feodallarının əlində oyuncağa çevrilmişlər. Belə ki, Baysunqurun adından dövləti idarə edən Sufi Xəlil (1490-1491) bütün rəqibləri və ayrı-ayrı feodal qruplarını məğlub edərək Ağqoyunlu dövlətinin idarəçiliyini öz əlində birləşdirməyə nail olmuşdur. Başqa sözlə, sufi təriqətləri bu dövrdə ölkənin ictimai-siyasi və ideoloji həyatında mühüm rol oynamış və dövlət siyasəti səviyyəsinə qalxa bilmişdi (18, s. 88).

Alim Təbriz şəhərini tərk edərək İstanbulda üzvü olduğu nəqşibəndiyyə təriqəti üzvlərinə üz tutmuşdur (12, s. 18). Bu dövrdə Anadolunun elm xadimlərinə ehtiyacının olmasını nəzərə alaraq Nemətullah Naxçıvani Konya vilayətinin Ağşəhər bölgəsinə göndərilmişdir. 1499-cu ildə burada əvvəlcə zaviyyə, sonra isə təkkə qurub sufizmin təbliği ilə məşğul olan alimin təşkil etdiyi bu mərkəz sənədlərdə "Əfkafi-zaviyeyi-Nemətullah Naxçıvani" adı ilə qeyd edilmişdir. Alimi ağşəhərlilər Şeyx Əlvan, Əlvanül Ağşəhəri, Nemətullah Naxçıvani, Baba Nemətullah və Nemətullah Sultan kimi tanımışlar. Gənclərə təhsil verən, müridləri öz ətrafında toplayan bu alimin kitabları və yazdığı təfsirlər yerli əhalinin maariflənməsində mühüm rol oynamışdır. Həmin təkkə müasir dövrdə saxlanmamışdır. 1499/1500-cü ildən Konya yaxınlığında Ağşəhərdə məskunlaşan Naxçıvani həyatını elm və irfana həsr etmiş, Anadolu sufiləri, təfsir alimləri və fəqihlər arasında şöhrət tapmışdır. O, dövrün siyasi hadisələrindən kənar durmuşdur. Mənbələrdə onu "kənə yuhfi nəfsəhu" ("özünü gizlətməyə adət etmiş") dərviş adlandırmışlar (13, s. 11). Onun haqqında məlumatların azlığı məhz bununla bağlıdır. Bu dövrdə şeyxlik və fəqihlik adı ilə bəzilərinin xalqı aldatması və sərvət toplaması onun gizlənməsinin daha bir səbəbi kimi göstərilmişdir.

Naxçıvandan geniş dünyagörüşünə malik bir alimin çıxmasında həmin dövr mühitinin böyük rolu olmuşdur. Hələ qədim zamanlardan Naxçıvan bölgəsindən mühüm ticarət yollarının keçməsi burada sufi təriqətlərinin yayılmasını şərtləndirən əsas amillərdən biri olmuşdur. Orta əsrlərdə təriqət mənsubları olanlar daha çox ünsiyyətdə olmaq və ticarətlərini genişləndirmək üçün öz xanəgahlarını gediş-gəlişin gur olduğu yerlər və mühüm ticarət yollarının kənarlarında qurmuşlar. Bu fikri dövrümüzə gəlib çatan toponimlər də sübut edir. Bu baxımdan Şərurda Dərvişlər və sufiliklə bağlı olan Zaviyə (Zeyvə), Culfa və Ordubadda Xanəgah, Xanağa kəndlərini və digərlərini göstərmək olar. Bu fikir E.Çələbi "Səyahətnamə"si və "Naxçıvan sancağının müfəssəl dəftəri" kimi etibarlı mənbələr, toponimçi alimlər T.Əhmədov, A.Bağırov və başqalarının tədqiqat əsərlərində öz təsdiqini tapmışdır (19, s. 27-28).

Naxçıvan bölgəsində sufiliklə bağlı başqa toponimlər Hacıvar, Tumbul, Göynük, Alışar, Zeynəddin və Şahtaxtı kimi kəndlər də müxtəlif dərviş ordenlərilə əlaqələndirilmişdir (19, s. 29). Rus etnoqraf-şərqşünası K.M.Smirnovun məlumatına əsasən orta əsrlərdə Naxçıvanda Nemətullahiyyə, Heydəriyyə, Nöqtəviyyə və Bəktaşiyyə kimi sufi təriqətlərinə məxsus dərvişlər fəaliyyət göstərmişlər (21, s. 61). Azərbaycan təsəvvüfündə iki cəhəti qeyd etmək lazımdır. Birinci, dərvişanə sufilik olub türk xalq İslam anlayışı, ikinci, elmi təsəvvüf anlayışı ilə bağlı olmuşdur. Baba Naxçıvani elmi təsəvvüf anlayışına sahib olan sufilər arasında ali təhsil almış və bir təfsir alimi kimi şöhrət qazanmışdır.

Orta əsrlər əlyazma mətnləri Naxçıvan mədəniyyətinin tarixi köklərinin araşdırılması baxımından olduqca önəmlidir. Eyni zamanda onlar ədəbiyyat tarixi ilə yanaşı mədəniyyət tarixi üçün də böyük əhəmiyyət kəsb edən geniş elmi sahəni əhatə etmişdir. Orta əsrlərdə qədim Naxçıvan diyarında yaradılmış abidə əsərləri ayrı-ayrı müəlliflər, mütəfəkkirlər, filosoflar və başqalarının dünyagörüşü, istedadı, bədii sənətkarlığı, elmə verdikləri yeniliklər və s.-i əks etdirən yazılı abidələr olmaqla bərabər, həm də Naxçıvan mədəniyyət tarixini işıqlandıran əsaslı və başlıca məxəzlərdir (8, s.81). Bu baxımdan Nemətullah Naxçıvani irsinin araşdırılması böyük maraq doğurur.

Nemətullah Naxçıvaninin əsərlərində Qurani-Kərim insanlığın həyatının ictimai-iqtisadi, siyasi, fərdi və dini həyat tərzini müəyyənləşdirən və hüquqi şəkildə əsaslandıran bir məcmu kimi geniş təhlil edilmişdir (16, s. 109). Onun ən böyük əsəri “Əl-Fəvatihul-İlahiyyə vəl Məfatihul-Qeybiyyə əl-muzihatu li`l-kəlimi`l-Qur`aniyyə və`l-hukəmi`l-Furkaniyyə” adlı təfsir kitabıdır. “Sufi qəlbinə dolan batini məna və işarətlərə görə ayələrin təvil edildiyi təsəvvüfi təfsirlər” kimi dəyərləndirilən bu əsər İslam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təvsir edən ilk əsərdir. O, özündən sonra bütün sufi və təsəvvüf alimlərinin mənbə kitabına çevrilmişdir (13, s. 11).

Nemətullah Naxçıvaninin ədəbiyyatdan istifadə etməyərək yazdığı “Quran” təfsir kitabı (“Əl-Fəvatihül İlahiyyə vəl Məfatihül Qeybiyyə”) üç cilddən ibarətdir. İlk cilddə 13, ikinci cilddə 20, üçüncü cilddə isə 81 surənin təfsiri və şərhi yer almışdır (5, s. 12). Nemətullah Naxçıvani öz təfsir əsərinin müqəddiməsində heç bir rəvayətə yer vermədən onu Tanrıdan gələn ilhamla yazdığını göstərmiş və rasional arqumentləri rədd etməmişdir. O, sadəcə rasional arqumentlə mistik ilhama istinad edən idrak formalarının müxtəlif mahiyyətlərini göstərməyə çalışmışdır (10, s. 47). O, bu təfsir əsərinin müqəddiməsində İbn Ərəbi kimi heç bir kitaba baxmadan kəşf və ilham yolu ilə yazdığını qeyd etmişdir. Hər surəyə müvafiq giriş yazmış və nəticə ilə tamamlamışdır. Hər bir surənin giriş və nəticəsi digərindən fərqli olmuşdur. Əsərin 17 səhifəlik müqəddiməsində o, öz təfsir metodunu təsəvvüfi çərçivədə, yəni vəhdəti-i-vücud, mütləq varlıq, mərifət və həqiqətləri və s. mövzuları izah etmişdir. Müəllif öz təfsir metodunu isə qısaca bu formada ifadə etmişdir: “... bu təfsir əsərinə təsəvvür və təfəkkür gözüylə deyil, ibrət gözüylə, dəlil və arqument gözü ilə deyil, daxili sezmə, şəkk və şübhə ilə deyil, kəşf və əyan olma vasitəsilə nəzər yetirəsiniz” (10, s. 56). Bu səbəbdən Nemətullah Naxçıvaninin “Əl-Fəvatihul-ilahiyyə” adlı əsəri Quran elmlərindən işari təfsir sahəsində özünəməxsus metodu olan və təfsirçilərin ən çox müraciət etdikləri əsərlərdəndir (1, s. 62).

Nemətullah Naxçıvaninin ikinci əsəri “Şərhi əsrarin əl-nöqtə” adlanır və vəhdəti-vücud anlayışının şərhindən ibarətdir. Uzun illər ərzində Baba Naxçıvaninin bu əsərin müəllifi olması şübhə altına alınsa da, əsərin yeni nüsxələrinin tapılması bu şübhəni aradan qaldırmışdır. Nemətullah Naxçııvaninin üçüncü əsəri “Hidayətül-ixvan” çox qiymətli bir mənbə kimi Türkiyədə tərcümə olunaraq nəşr edilmişdir. Bu 3 əsas əsərdən əlavə daha 7 risalə (“Təhqiqat”, “Vücudiyyə”, “Məcmuai-lətaif”, “Hidayə”, “Nikat”, “Mukaşəfa” və “Əsilə və əcibə”), müəllifliyinin ona aid olması güman edilən və dffə adı ilə tanınan bir neçə risalə Baba Naxçıvaninin adı ilə bağlıdır (13, s. 11). Onun “Nöqtənin sirlərinin şərhi” (Şərhi əsrar əl-nüktə) adlı bir əsərinin olması da xatırlanır (11, s. 6).

Dövrünün məşhur sufisi Nemətullah Naxçıvani XIII əsr məşhur türk filosofu Mövlanə Cəlaləddin Ruminin yaradıcılığına böyük maraq göstərmişdir. Bu, onun “Şərhi-rubai-Şeyx Cəlaləddin” risaləsində öz əksini tapmışdır. O, burada Cəlaləddin Ruminin rubailərini şərh etmişdir.

Nemətullah Naxçıvaninin yalnız əsərlərinə diqqət yetirmək kifayətdir ki, görkəmli alim və geniş dünyagörüşünə malik şəxs olması anlaşılsın. Mühyiddin ibn Ərəbinin məşhur “Füsusül əl-hikəm”, Şeyx Mahmud Şəbüstərinin “Gülşəni-raz” kimi olduqca mürəkkəb və çətin əsərlərinə şərhlər, Beyzavinin böyük şöhrət qazanmış təfsirinə qeydlər və Quranın sufi təfsirini yazmaq üçün İslam dini ilə yanaşı qədim yunan fəlsəfəsi, təfəvvüfü, panteizmi və vəhdəti-vücud təlimini çox dərindən bilmək tələb olunurdu. Məhz belə biliyə malik olan Nemətullah Naxçıvani dövrünün ən ziddiyyətli şəxsiyyətlərindən olan İbn Ərəbi irsinə yaradıcılıqla yanaşmış, onun tərəfdarları və əleyhdarlarına münasibətini bildirmişdir.

XV əsrdə Azərbaycanın fəlsəfi fikrinin inkişafı üçün keçmiş dövrlərdə yazılmış sufi-panteist istiqamətli əsərlərin Azərbaycan dilinə tərcümə olunmasının müəyyən əhəmiyyəti olmuşdur. Belə ki, Şirazi təxəllüslü şair Mahmud Şəbüstərinin “Gülşəni-raz” əsəri Azərbaycan dilinə çevrilmişdir. Bu dövrdə Azərbaycan mütəfəkkirlərindən Seyid Yəhya Xəlvəti, Yəhya Şirvani, Şəmsəddin Məhəmməd ibn Əli Lahici, Kəmaləddin Hüseyn Ərdəbili

və b. Mahmud Şəbüstərinin əsərinə şərhlər yazmışlar (3, s. 167). Baba Naxçıvaninin bu əsərlə bağlı yazdığı şərhlər özünəməxsusluğu ilə fərqlənmişdir. 1317-ci ildə Mahmud Şəbüstəri tərəfindən yazılan "Gülşəni-raz" əsərinə yazdığı şərhin əsas ideyası varlığın panteistcəsinə izah olunmasıdır. Burada müəllif müxtəlif Şərq peripatiklərinin emanasiya nəzəriyyəsi, mərtəbəli quruluşunun Quran surələrinə nisbətdə ətraflı təhlilini vermiş, ayələrin əql, nəfs, göy və ulduzlara müvafiqliyini yüksək qiymətləndirmişdir (16, s. 110). İnsan nəfsini universal nəfs ilə eyni tutan və onu bütün aləmə şamil edən Nemətullah Naxçıvani varlığın idrakında zahiri cəhətləri qavramağı şəriət, daxili cəhətləri dərk etməyi isə həqiqətə bağlamışdır. Həqiqəti bilmək üçün şəriət ilə həqiqət arasındakı yolu – təriqəti qət etməyin vacibliyini əsaslandırmışdır. Şəbüstərinin fikirlərinin ziddiyyətli olması Baba Nemətullaha onun yaradanın keyfiyyətləri haqqında Quran və Sünnədəki mühakimələrə uyğun olan fikirlərini yüksək qiymətləndirməyə mane ola bilməmişdir. Müəllif, hətta Şəbüstərinin dualist cərəyan və təriqətləri tənqidinə tərəfdar çıxmışdır (16, s. 110).

Nemətullah Naxçıvani irsinin araşdırılmasında mühüm rolu olan XVI əsr Osmanlı salnaməçisi Əhməd Əfəndi Taşköprüzadənin "Şeqayiq ün-Numaniyyet-ü fi Ülemad Devletil-Osmaniyye" adlı irihəcmli əsərində alimin nəqşibəndiyyə təriqətinin xəlvətiyyə qoluna mənsub olması barədə ətraflı məlumat vermişdir (12, s.18). Həmin məlumat XVII əsr Osmanlı müəllifi Katib Çələbi tərəfindən təsdiq olunmuşdur. Topqapı sarayı Sultan III Əhməd kitabxanasında Nemətullah Naxçıvaninin öz əli ilə yazdığı "Qurani-Kərim"in bütün ayələrini sufizm baxımından şərh edən "Əl-Fəvatihül-İlahiyyə vəl-Məfatihül-Qeybiyyə" adlı təfsiri indi də saxlanılmaqdadır. Əsər 1907 və 1908-ci illərdə Sultan II Əbdülhəmidin göstərişi ilə nəşr olunmuşdur. Türkiyəli alim Ali İhsan Türcan bu əsəri üç cilddə 2013-2016-cı illərdə Kayseri şəhərində "Naxçıvani təfsiri" adı ilə nəşr etdirmişdir (12, s.18).

2019-cu ilin martında Türkiyənin Naxçıvandakı baş konsulu Mehmet Emin Kıraz AMEA-nın Naxçıvan Bölməsində olmuş, Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan 12 əlyazma nüsxəsinin elektron variantını bölməyə təqdim etmişdir. Bölmənin sədri, akad. İ.Hacıyevin məlumatına əsasən alimin "Əl-Fəvatihul-ilahiyyə vəl məfatihul-qeybiyyə əl-muzihatu li`l-kəlimi`l-Qur`aniyyə və`l-hukəmi`l-Furkaniyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) üçcildlik əsərinin birinci cildi Türkiyə türkcəsindən Azərbaycan dilinə tərcümə olunaraq çap olunmuş, ikinci və üçüncü cildlər üzərində iş gedir. Eyni zamanda "Hidayətül-ixvan" kitabı tərcümə olunaraq çapa hazırlanmışdır (6, s. 5). 2018-ci ildə AMEA-nın Naxçıvan Bölməsində "Baba Nemətullah Naxçıvani və orta əsrlər İslam mədəniyyəti" və 2019-cu ildə "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzularında konfransların keçirilməsi alimin yaradıcılığı və irsinə verilən yüksək qiyməti bir daha təsdiq edir. Nemətullah Naxçıvaninin dövrü, yaradıcılığı, fəlsəfəsi, dünya mədəniyyətinə verdiyi töhfələr və s. ilə bağlı kompleks tədbirlər planının hazırlanması məqsədi ilə verilən "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 2018-ci il 29 oktyabr tarixli sərəncamın rolu olduqca diqqətəlayiqdir.

Beləliklə, məşhur elmi-fəlsəfi traktat, şərh və risalələrin müəllifi kimi Azərbaycan və Türkiyə elm tarixində mühüm yer tutan Nemətullah Naxçıvani irsinin öyrənilməsi müasir dövrdə orta əsrlər Azərbaycan mənbələrinin öyrənilməsi və tədqiqi baxımından böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Abuzərov N. Azərbaycanlı hədis alimləri // Azərbaycanda ənənəvi din, Bakı: Elm və təhsil, 2014, s. 62-81.

2. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). I c. Bakı: Çıraq, 2007, 720 s.

3. Azərbaycan tarixi. Yeddi cilddə. III c. (XIII-XVIII əsrlər), Bakı: Elm, 1999, 584 s.

4. Babayev Y.M. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər), Bakı: Elm və təhsil, 2018, 760 s.

5. Baba Nemətullah Naxçıvani və orta əsrlər İslam mədəniyyəti // Mədəniyyət, 2018, 21 sentyabr, s.12.
6. Hacı Tofiq. Nemətullah Naxçıvani irsi tədqiq olunur // Azad Azərbaycan. – 2019. 12 mart, s. 5.
7. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar, Bakı: Elm, 2001, 280 s.
8. İbrahimov S. Naxçıvanın milli-mənəvi sərvəti olan əlyazma mətnlərinin araşdırılması, Naxçıvan: [s.n.), 2011, 201 s.
9. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı: APİ nəşriyyatı, 1958. – 210 s.
10. İlyasov R. Quran elmləri və Azərbaycan //Azərbaycanda ənənəvi din. Bakı: Elm və təhsil, 2014. – s. 47-61.
11. Qasımov R. Türk – islam alimi Baba Nemətullah Naxçıvani və orta əsrlər Naxçıvan mühiti // 525-ci qəzet. – 2018. – 9 may. – S. 6.
12. Quliyev Ə. Nemətullah Naxçıvani və Anadolu elləri // 525-ci qəzet. – 2018. – 15 dekabr. – S. 18.
13. Nəcəf Ə. “Gizlənən dərviş” – Baba Nemətullah Naxçıvani // Xalq qəzeti. – 2013. – 13 noyabr. – S. 11
14. Onullahi S.M. Təbrizin maarif və məktəb tarixindən (XIV-XV əsrlər) //Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1976, № 4, s. 31-39.
15. Rəhimov N. Azərbaycanın din alimləri. Bakı: Nurlar, 2014. – 216 s.
16. Rzayev M. H. Fəlsəfə tarixi. Bakı: MBM, 2015. – 534 s.
17. Səfərli F. Azərbaycanda Orta əsr təhsil və elm mərkəzləri – mədrəsələr // Dövlət və Din. – yanvar- fevral. – 2011. - № 1. – S. 13-19.
18. Səfərli H.F.Orta əsrlərdə Naxçıvanın sosial-siyasi həyatında dini mərkəzlərin rolu. Bakı: Elm, 2003. – 392 s.
19. Səfərli F. Toponimlər Orta əsrlərdə Naxçıvanda sufi təriqətlərinin fəaliyyət göstərməsini təsdiq edən qaynaq kimi //Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin “Xəbərlər”i, 2010, № 3, s. 27-33.
20. Səfərli F., Rzayev M. Orta əsr təfsir elminin görkəmli nümayəndəsi // Dövlət və Din. – noyabr – dekabr. – 2009. - № 6. – S.209-217.
21. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 159 с.

**А.А.Мехтиева**

**Роль наследия Нематулла Нахичевани
в изучении средневекового периода Азербайджана**
***Резюме***

Азербайджан вошел в историю человечества не только своими природными ресурсами, выгодным геостратегическим положением и важной ролью на исторической арене, но и известными историческими деятелями, учеными и деятелями культуры. Азербайджанцы, добившиеся больших успехов в различных областях науки, так же добились значительных успехов в развитии философских и религиозных мировоззрений. Средневековые мыслители сыграли важную роль в достижении этих успехов. Изучение жизни и творчества Нематуллаха Нахичевани, великого ученого и философа своего времени, отличавшегося своим вкладом и новаторством в науке, следует считать бесценным источником в изучении исторических событий, наряду с философией, религией и другими областями. С этой точки зрения изучение данного выдающегося ученого и его богатого наследия, являющегося живым свидетелем истории, привлекает внимание своей актуальностью во все исторические периоды.

**A.A.Mehdiyeva**

**The role of investigation of Nematullah Nakhchivany heritage
in research of period of middle ages of Azerbaijan**
***Summary***

Azerbaijan became the history of world civilization not only with its history of natural resources, convenient geostrategic position and important part in historical scene, at the same time

with its well-known historical persons, representatives of science and culture. The Azeri men gained the great achievements in different spheres of science got the important improvements in process of development of philisophic and religious world outlooks. The thinkers of Middle Ages took the important part in gaining of these achievements. The investigation of life and creative work of Nematullah Nakhchivany, who was the great scientist, philosopher of his period, differred with his contribution and discoveries in science, must be considered as the valuable source not only in research of philosophy, religion and other spheres, also the historical events of his period. From this point of view, the investigation of scientist, who was the real witness of the history and his rich heritage attract the attention with its actuality in all historical periods.

*Rəyçi: prof. N.C.Mehdiyeva*

*Redaksiyaya daxil olub: 11.06.2022*